# Bakı Şəhər İcra Hakimiyyətinin Ticarət və Xidmət Departamenti

Bakı Şəhər İcra Hakimiyyətinin strukturu olan Bakı Şəhər Ticarət və Xidmət Departamenti qanunvericiliyə müvafiq olaraq mülkiyyət formasından asılı olmayaraq ticarət, ictimai iaşə, məişət və digər xidmət müəssisələrinin lazımi istismarına və əhaliyə xidmətin təşkil edilməsinə nəzarəti həyata keçirən, səlahiyyətləri daxilində istehlakçıların hüquqlarının müdafiəsini təmin edən dövlət orqanıdır.

**Departamentin əsas vəzifələri aşağıdakılardır:**

- Departament Əsasnaməsi ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir.
- istehlak və xidmət bazarının tənzimlənməsi, ticarət və xidmət obyektlərinin yerləşdirilməsi, istismarı və fəaliyyət dairəsinə aid olan digər sahələrdə normativ tənzimlənməni həyata keçirmək məqsədilə müvafiq sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək;
- istehlak və xidmət bazarının inkişafı, istehlakçıların hüquqlarının müdafiəsi sahələrində dövlət proqramları və inkişaf konsepsiyalarının həyata keçirilməsini səlahiyyətləri daxilində təmin etmək;
- istehlak və xidmət bazarında fəaliyyət göstərən kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üzrə səlahiyyətləri daxilində tədbirlər görmək;
- mövcud qanunvericiliyə uyğun səyyari (mövsümi) ticarət və xidmət fəaliyyətinin həyata keçirilməsi üçün yerlər müəyyən edilməsinə görə "icazə"lər vermək və müəyyən edilmiş yerlərdən istifadə edilməsinə nəzarəti həyata keçirmək, bu sahədə qanun pozuntularının aradan qaldırılması ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;
- çimərlik ərazilərində istirahət edənlərə lazımi səviyyədə xidmət göstərilməsi üçün ticarət, iaşə və digər xidmətlərin təşkili məqsədilə müvafiq qaydada yerlər müəyyən edilməsi, hüquqi və fiziki şəxslər tərəfindən malların alqı-satqısı, işlərin görülməsi və ya xidmətlərin göstərilməsi qaydalarına əməl edilməsi, həmçinin çimərliklərə giriş üçün pul yığılmasının qarşının alınması məqsədilə tədbirlər görmək;
- müvafiq icra hakimiyyəti (yerli icra hakimiyyəti) orqanları tərəfindən müəyyən edilməmiş yerlərdə ticarət və xidmət fəaliyyətinin aparılmasının qarşısını almaq və bu sahədəki pozuntuların aradan qaldırılması ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;
- ticarət ictimai iaşə, məişət və digər xidmət, həmçinin istehsal obyektlərinin mövcud qanunvericiliyə uyğun yerləşdirilməsi və istismarına nəzarəti həyata keçirmək, bu sahədə qanun pozuntularının aradan qaldırılması ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

- müəyyən edilməmiş yerlərdəki ticarət və xidmət fəaliyyətinin ləğv edilməsini təmin etmək və bu sahədə pozuntulara yol vermiş şəxslər barəsində qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;
- ticarət və bütün növ xidmət sahələrində işlərin daha da səmərəli təşkilini təmin etmək məqsədilə verilən təklifləri təhlil etmək, eləcə də bu sahələrdəki nöqsanlarla, pozuntularla, qanuna zidd hərəkətlərlə bağlı vətəndaşlardan, müəssisə və təşkilatlardan daxil olan şikayətlərə baxmaq, təhlil etmək, onların aradan qaldırılması üçün qanunvericilikdə nəzərdə tutulmuş qaydada tədbirlər görmək, yerində araşdırmalar aparmaq;
- sahibkarların hüquqlarını pozmamaqla ticarət və xidmət sahələrində olan pozuntuların, istehlakçıların və vətəndaşların hüquqlarının pozulması ilə nəticələnən neqativ halların aşkara çıxarılması və aradan qaldırılması məqsədilə monitorinqlər, baxışlar keçirmək, müşahidələr aparmaq, reydlər təşkil etmək;
- malların alqı-satqısı, işlərin görülməsi və ya xidmətlərin göstərilməsi qaydalarına, bazarlarda və yarmarkalarda ticarət qaydalarına, eləcə də ticarət və bütün növ xidmət obyektlərinin yerləşdirilməsi qaydalarına əməl olunmasına nəzarəti təşkil etmək və onu həyata keçirmək;
- mövcud qanunvericiliyə uyğun olaraq qeyri-qanuni küçə ticarətinin qarşısının alınması və ya belə halların aradan qaldırılmasını təmin edən tədbirlər görmək;
- ticarət, ictimai iaşə, məişət və digər xidmət sahələrində malların alqı-satqısı, işlərin görülməsi və ya xidmətlərin göstərilməsinin mövcud norma və qaydalarına riayət olunmasına, səlahiyyətləri daxilində istehlakçıların hüquqlarının gözlənilməsinə nəzarəti həyata keçirmək, bu sahədə qanun pozuntularının aradan qaldırılması ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;
- bazarlarda, yarmarkalarda və ticarət mərkəzlərində ticarət və xidmət qaydalarının gözlənilməsinə nəzarəti həyata keçirmək və bu sahədə qanun pozuntularının aradan qaldırılması; ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;
- qanunvericiliyin pozulması ilə bağlı səlahiyyətlərinə aid edilmiş inzibati xətalar haqqında işlərə baxmaq, inzibati xəta törətmiş şəxslər barədə qanunvericiliklə müəyyən edilmiş qaydada inzibati tənbeh tədbirləri tətbiq etmək.

**Bakı Şəhər İcra Hakimiyyətinin Ticarət və Xidmət Deprtamentinin strukturu:**

| № | Soyadı, ad, atasının adı | Vəzifəsi | Əlaqə telefonu |
|---|---|---|---|
| 1. | Məmmədov İntiqam Behbud oğlu | direktor | 564-58-05 |
| 2. | Hüseynov Mövsüm Fazil oğlu | müavin | |
| 3. | Məmmədov Pərviz Tofiq oğlu | Məişət və digər xidmət obyektlərinin istismarı, yerləşdirilməsi, fəaliyyətinin təhlili və tənzimlənməsi işləri üzrə sektorun müdiri | |
| 4. | | Səyyari (mövsumi) ticarət, ictimai iaşə, məişət və digər xidmət fəaliyyəti üzrə sektorunun müdiri | |
| 5. | Cavadzadə Elnarə Asif qızı | Ticarət və ictimai iaşə obyektlərinin istismarı, yerləşdirilməsi, fəaliyyətinin təhlili və tənzimlənməsi işləri üzrə sektorun müdiri | |
| 6. | Orucov Ümid Hüseyn oğlu | Mühasibat uçotu və iqtisadi təhlil sektorunun müdiri vəzifəsini müvəqqəti icra edən | |
| 7. | Atayev Mübariz Nadir oğlu | Ümumi sektorun müdiri | 564-58-05 |
| 8. | Mürsəliyeva Gülarə Mustafa qızı | Kadrlar üzrə məsləhətçi | |

***Ünvan: AZ 1072, Nərimanov rayonu, F.X.Xoyski küçəsi 110,***

***Telefon/ faks: (012) 564-58-05***